

# BFB AYLIQ HESABAT

**FEVRAL 2020**

*Aylıq hesabat*

BAKI FOND BİRJASI

*Mühüm Hadisələr*

# 2020 FEVRAL

## Dünya Birjaları Federasiyası (WFE) ilə əməkdaşlıq

Bakı Fond Birjası regionda Federasiya ilə əməkdaşlığa başlayan ilk birja olmuşdur. Federasiya ilə tərəfdaşlıq Bakı Fond Birjasının inkişaf perspektivlərində və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyininin yaxşılaşdırılması istiqamətində yeni imkanlar yaradır. Belə ki, bu cür nüfuzlu təşkilatla tərəfdaşlıq Bakı Fond Birjasının dövriyyə göstəricilərinin beynəlxalq məlumat resurslarında açıqlanmasına şərait yaradacaq və Federasiyaya üzv olan digər birjalar arasında qarşılıqlı listinq və əməkdaşlı imkanlarını artıracaqdır.

## İlk dəfə olaraq, səhm üzrə repo əməliyyatları

"AzFinance İnvestisiya Şirkəti" QSC-nin vasitəçiliyi ilə iki emitentə məxsus səhmlər üzrə repo əməliyyatı keçirilmişdir. Qeyd edilməlidir ki, indiyədək repo əməliyyatların predmeti əsasən dövlət və korporativ istiqrazlar olmuşdur. Repo əməliyyatı – repo predmeti olan investisiya qiymətli kağızlarının əvvəlcədən müəyyən edilmiş şərtlərlə geri satın alınması (satılması) öhdəliyi ilə satılmasıdır (alınmasıdır). Repo əməliyyatları investorlar üçün qısamüddətli borc cəlb etmə imkanları təqdim edir. Bazar iştirakçıları Birjanın ticarət platformasında repo əqdləri bağlayaraq qısamüddətli maliyyə ehtiyaclarını təmin edə bilərlər.

## Səhmlər üzrə təkrar bazar əməliyyatlarında yüksək artım

"İnvest-AZ İnvestisiya Şirkəti" QSC səhm bazarı üzrə ticarətdə aktiv iştirak etmişdir. Belə ki, fevral ayı ərzində səhm bazarında 6 milyon manatdan yuxarı həcmdə ticarət əqdi keçirilmişdir. 2020-ci ilin yanvar-fevral ayları ərzində səhmlər üzrə təkrar bazarı əqdlərinin ümumi həcmi ötən ilin qeyd olunan aylarının həcmləri ilə müqayisədə 53 dəfəyə qədər artım göstərmişdir. Yanvar- fevral ayları üzrə səhm bazarında ticarət həcminin 90%-ə yaxını İnvestAZ investisiya şirkətinin payına düşür.

## Repo əməliyyatlarında yuxarı həcmdə artım

2020-ci ildə yanvar-fevral aylarında repo əməliyyatları üzrə ümumi əməliyyat həcmi 241,205,275 manata yüksələrək 2019-cu ilin qeyd olunan aylarına nəzərən 3.79 dəfəyə kimi artmışdır. Repo əməliyyatlarında 77.6% payla Paşa Kapital investisiya şirkəti xüsusilə seçilir.

## Bakı Fond Birjası QSC yeni ünvanda

Nəzərinizə çatdırmaq istərdik ki, Bakı Fond Birjası QSC 1 fevral 2020-ci il tarixindən etibarən yeni ünvanda AZ1141, Bakı şəhəri, Yasamal rayonu, Həsən Bəy Zərdabi küçəsi 2A (Şokolad Tower) fəaliyyətinə davam edəcəkdir.

## Listinq Məsləhət Proqramına yeni tərəfdaş

Kapital bazarından maliyyələşməni təşviq edən və bu istiqamətdə emitentlərlə ödənişsiz məlumat və məsləhət xidmətlərinin göstərildiyi Listinq Məsləhət Proqramına (LMP) "Günay Sığorta" ASC tərəfdaş qimsində qoşulmuşdur.Bununla əlaqədar olaraq, "Bakı Fond Birjası" QSC (BFB) və "Günay Sığorta" ASC arasında 20 fevral 2020-ci il tarixində "Listinq Məsləhət Proqramı" üzrə əməkdaşlıq haqqında memorandum imzalanmışdır.

*Yanvar-Fevral 2020*

# AYLIQ STATISTIKA

Bakı Fond Birjasında 2020-ci ilin yanvar-fevral aylarında qiymətli kağızlar üzrə keçirilən əməliyyatların ümumi həcmi 1,095,765,094 manat təşkil etmişdir. 2019-cu ilin analoji dövrü üzrə əməliyyatların həcmi 2,726,498,017 olmuşdur. Nəticə olaraq, 2020-ci ilin yanvar-fevral ayları üzrə dövlət qiymətli kağızların (Mərkəzi Bank və Maliyyə Nazirliyi) ilkin bazarında yerləşdirmələrin həcmində ötən ilə nəzərən azalma müşahidə olumasına baxmayaraq, ümumi təkrar bazar üzrə ticarət həcmində 174%, repo əməliyyatları üzrə isə 278% böyümə qeydə alınmışdır.

## Ötən ilə nəzərən

**278 %**
*Repo əməliyyatları*

**174%**
*Ümumi təkrar bazar*

**81%**
*DQK ilkin bazar*




*KQK- Korporativ Qiymətli Kağızlar
*MN - Maliyyə Nazirliyi
*DQK- Dövlət Qiymətli Kağızları

## 2020 Fevral ayı üzrə

**Ümumi ticarət həcmi**
**428,481,716**

**Aylıq əqdlərin sayı**
**406**

**Aylıq ticarət günlərinin sayı**
**20**

*Bakı Fond Birjasında keçirilən əməliyyatların ümumi həcmi*

# 2020 YANVAR-FEVRAL

| Bazarlar / Əməliyyatlar | 29.02.2020-ci il tarixinə | | 28.02.2019-cu il tarixinə | |
|---|---|---|---|---|
| | Əqdlərin həcmi (manatla) | Əqdlərin sayı | Əqdlərin həcmi (manatla) | Əqdlərin sayı |
| **1. Dövlət qiymətli kağızları** | **450,206,522** | **183** | **2,605,082,877** | **321** |
| **1.1. İlkin bazar** | **351,352,446** | **104** | **2,479,078,739** | **240** |
| Dövlət istiqrazları | 95,865,527 | 57 | 93,150,255 | 44 |
| ARMB* qiymətli kağızları | 255,486,919 | 47 | 2,385,928,484 | 196 |
| **1.2. Təkrar bazar** | **98,854,076** | **79** | **126,004,137** | **81** |
| Dövlət istiqrazları | 60,710,591 | 74 | 57,482,182 | 69 |
| ARMB qiymətli kağızları | 38,143,485 | 5 | 68,521,955 | 12 |
| **2. Korporativ qiymətli kağızlar** | **404,353,297** | **466** | **57,629,267** | **409** |
| **2.1. İlkin bazar** | - | - | **300,000** | **2** |
| 2.1.1. Səhmlər | - | - | 300,000 | 2 |
| 2.1.2. İstiqrazlar | - | - | 0 | - |
| - İpoteka istiqrazları | - | 0 | 0 | 0 |
| - Digər istiqrazlar | - | 0 | 0 | 0 |
| **2.2. Təkrar bazar** | **404,353,297** | **466** | **57,329,267** | **407** |
| 2.2.1. Səhmlər | 6,415,785 | 370 | 121,407 | 298 |
| 2.2.2. İstiqrazlar | 397,937,512 | 96 | 57,207,860 | 109 |
| - İpoteka istiqrazları | 392,270,635 | 17 | 45,217,409 | 2 |
| - Digər istiqrazlar | 5,666,877 | 79 | 11,990,451 | 107 |
| **3. Repo əməliyyatları** | **241,205,275** | **134** | **63,785,873** | **50** |
| Dövlət istiqrazları üzrə | 212,180,021 | 118 | 61,440,921 | 47 |
| ARMB qiymətli kağızları üzrə | 3,000,015 | 1 | 0 | - |
| Korporativ qiymətli kağızlar üzrə | 26,025,239 | 15 | 2,344,952 | 3 |
| **Cəmi (1+2+3)** | **1,095,765,094** | **783** | **2,726,498,017** | **780** |
| - o cümlədən: ilkin bazar | **351,352,446** | **104** | **2,479,378,739** | **242** |
| - o cümlədən: təkrar bazar | **503,207,373** | **545** | **183,333,404** | **488** |

# Birja üzvlərinin yanvar-fevral ayları üzrə renkinqi

İnvestisiya şirkətləri

| Qiymətli kağızın növünə görə | "AzFinance" İ.Ş QSC | "BTB Kapital İ.Ş" ASC | "İnvest-AZ İ.Ş" QSC | "Paşa Kapital İ.Ş" QSC | "PSG Kapital İ.Ş" QSC | "Unicapital İ.Ş" ASC | "Xalq Kapital İ.Ş" QSC |
|---|---|---|---|---|---|---|---|
| **ARMB qiymətli kağızları** | 132,852,798 | 19,050,632 | 43,323,483 | 125,213,737 | 999,977 | 1,999,985 | 8,333,278 |
| **Dövlət istiqrazları** | 91,233,559 | 17,138,890 | 999,828 | 144,092,012 | 7,559,030 | 44,559,258 | 7,569,659 |
| **Korporativ istiqrazlar** | 111,237,076 | 2,918,258 | - | 270,155,479 | 6,768,646 | 2,338,666 | 10,186,265 |
| **Səhm** | - | 1,198,046 | 11,498,283 | - | 64,904 | - | 70,337 |
| **Repo** | 7,320,328 | 7,057,743 | - | 401,343,388 | 2,399,649 | 64,289,442 | - |
| **Cəmi əməliyyatların həcmi** | 342,643,760 | 47,363,569 | 55,821,594 | 940,804,615 | 17,792,206 | 113,187,351 | 26,159,539 |
| **Cəmi əməliyyatların sayı** | 152 | 53 | 513 | 327 | 194 | 84 | 179 |

